AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS



www.pq.mia.gov.az

polisazerbaycan

13 yanvar 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 2 (3565)

# AZƏRBAYCAN DÜNYANIN SİYASİ VƏ HƏRBİ GÜCÜNƏ ÇEVRİLİR



Ötən il ölkəmiz üçün bir sıra nailiyyətlərlə yadda qaldı. Ətalətdə deyil, hərəkətdə olan diplomatiyamız Qafqazdan dünyaya təsir edəcək gücə çevrildiyini sübut etdi.

Vətən müharibəsində qazanılan Zəfər, eləcə də Prezident İlham Əliyevin müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə keçirdiyi çoxsaylı görüşlər Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsində böyük rol oynadı. Bu dövrdə nəinki beynəlxalq əlaqələr daha da genişləndirildi, həmçinin regional və dünya miqyasında milli maraqların effektiv şəkildə təmin edilməsi istiqamətində qətiyyətli addımlar atıldı.

Ötən il ilk xarici səfərini Rusiya Federasiyasına edən dövlət başçımız işgüzar xarakter daşıyan bu səfərdə Rusiya prezidenti və Ermənistanın baş naziri ilə görüşdü. Bu görüş Azərbaycanın 44 günlük müharibədəki Zəfərinin hüquqi-siyasi təsdiqi olan 10 noyabr Bəyanatında yer alan məsələlərdən irəli gələn prioritetlərlə bağlı idi.

Moskvadakı görüş də üçtərəfli Bəyanatın imzalanması, iqtisadi və regional əməkdaşlıq məsələlərini nəzərdə tutan ikinci bəyanatın qəbul olunması, regionun gələcəyinə böyük perspektivlər vəd edirdi...

Ötən il yanvarın 11-də keçirilən görüş isə dövlətlərarası münasibətlərin hazırda strateji səviyyəyə yüksəldiyinin göstəricisidir.

Prezidentin ötən ilin iyulunda Rusiya Federasiyasına səfəri ölkələrimiz arasında siyasi-iqtisadi münasibətlərin qonşuluq və dostluq prinsiplərinə söykənərək daha da dərinləşdiyini göstərdi.

Bu görüşdə də bütün kommunikasiyaların, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat dəhlizinin - Zəngəzur dəhlizinin açılması məsələsi prioritet idi. Və tərəflər vahid mövqedən çıxış edərək bəyanatın müddəalarının yerinə yetirilməsində qətiyyət nümayiş etdirdilər.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşü də mühüm hadisələrlə yadda qaldı. Belə ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının katibliyinin yeni binasının açılış mərasimi keçirildi, şuranın adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı qərarlar qəbul olundu. VIII Zirvə görüşünün ən mühüm hadisəsi isə Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi oldu.

Bu səfər zamanı Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarovla ayrıca görüşüb, iki ölkə arasında iqtisadi-ticari münasibətlərin genişləndirilməsi, investisiyalar, energetika, nəqliyyat və digər sahələrdə, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin gücləndirilməsi məsələlərini müzakirə etdi.

Noyabrın 26-da Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərinə işgüzar səfəri zamanı Ermənistanın baş naziri Nikol Paşinyanla da görüşdü.

Görüşün əsas müzakirə mövzusu 2020-ci il noyabr Bəyanatının, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişi barədə oldu. Prezident ölkəmizin haqlı mövqeyini bir daha bəyan etdi.

Soçi görüşü vacib razılaşmaların əldə olunması ilə nəticələndi.

İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Zirvə Toplantısı, Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammiti, NATO-nun Baş katibi Yens Stoltenberqlə, Aİ Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla görüş də Prezident İlham Əliyev diplomatiyasının ölkəmizin milli maraq və mənafelərinin müdafiəsinə köklənməsini bir daha özündə ehtiva edirdi.

Beləliklə, 2021-ci ildə Prezident İlham Əliyev 7 dəfə xarici səfər edib: 4 dəfə Rusiyaya, 1 dəfə Türkiyəyə, 1 dəfə Türkmənistana və 1 dəfə Belçikaya. Bu səfərlər zamanı Prezident İlham Əliyev 12 ölkənin prezidenti (Türkiyə, Pakistan, Rusiya, Qırğız Respublikası, Türkmənistan, İran, Qazaxıstan, Tacikistan, Ukrayna, Moldova, Fransa, Özbəkistan), 3 beynəlxalq təşkilatın rəhbəri (Türk Şurası, Aİ, NATO) 2 ölkənin baş naziri (Macarıstan və Ermənistan) ilə görüşüb. Bu səfərlər və görüşlər Azərbaycanın xarici siyasətinin kifayət qədər dolğun, düşünülmüş və çoxşaxəli olduğunu göstərir.

## QANUNUN TƏLƏBLƏRİNİN İCRASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili İşlər Nazirliyi tərəfindən "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanılır.

Respublikanın şəhər, rayon polis orqanları tərəfindən aidiyyəti təşkilatlarla birgə qanunla tütün çəkilməsinə icazə verilməyən yerlərdə monitorinqlər keçirilir, fiziki və hüquqi şəxslər, fərdi sahibkarlar, eləcə də əhali arasında geniş izahat işləri aparılır, müvafiq qanunvericiliyin tələblərinin pozulması ilə bağlı Daxili İşlər Nazirliyinin "102-Xidməti-Zəng Mərkəzi Sistemi"nə və www.mia.gov.az elektron saytına müraciət etmək hüququnun olması barədə vətəndaşlara, fiziki və hüquqi şəxslərə, fərdi sahibkarlara məlumat verilir.

Ümumilikdə, 2021-ci il ərzində respublikanın şəhər, rayon polis orqanları tərəfindən keçirilmiş tədbirlər nəticəsində "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunla qadağan edilmiş yerlərdə tütün çəkdiklərinə, tütün məmulatları tullantılarını ətraf mühitə atdıqlarına görə 3422, tütün məmulatlarını yetkinlik yaşına çatmayanlara satdıqlarına görə 270 şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 212.1-ci, 212.4-cü və 455.2-ci maddələrinə əsasən inzibati tənbeh tədbiri tətbiq olunub. Tətbiq edilmiş cərimələr 133.140 manat təşkil edib.

## "TƏHLÜKƏLİDİR" ÇAĞIRIŞINA MƏHƏL QOYMAYANLAR

### *İşğaldan azad edilmiş ərazilərə icazəsiz daxil olan şəxslər saxlanılıb*

İşğaldan azad edilmiş, lakin minalardan və digər partlayıcı vasitələrdən tam təmizlənməmiş ərazilərə nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər keçirilir.




Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində rayon ərazisinə nəzarət postlarından kənar yollarla və müvafiq icazəsi olmadan keçən 4 nəfər saxlanılıb. Araşdırmalarla onların Goranboy rayon sakinləri – H.Məmmədov, Ə.Məmmədov, Ə.Vəlisoy və Ə.Abdullayev olduqları müəyyən edilib.

Həmin şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokollar tərtib olunaraq rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə onların hər biri 10 gün müddətinə inzibati qaydada həbs edilib.

## Göstəricilər nikbinlik yaradır

Azərbaycanın 2022-ci il dövlət büdcəsi Ermənistandan 4, Gürcüstandan isə 3 dəfə çoxdur; Azərbaycanın hərbi büdcəsi Ermənistandan 3,7 dəfə, Gürcüstandan isə 9,1 dəfə artıqdır; Ermənilərin 47,6 faizi yoxsulluq içində yaşayır.

Azərbaycan davamlı olaraq siyasi, sosial-iqtisadi qüdrətini artırır, mövqelərini möhkəmləndirir. 2022-ci il ərzində də Azərbaycanın yeni nailiyyətlər qazanacağına heç bir şübhə yoxdur. Eyni zamanda atılan addımlar Azərbaycanın regionda lider ölkə statusunu daha da möhkəmləndirəcəyini deməyə əsas verir. Bunu region ölkələrinin büdcələrinə nəzər salmaqla da aydın görmək olar.

Regionda ən az büdcə yenə Ermənistana məxsusdur.

Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun yenə də Qafqazda ən böyük büdcənin ölkəmizə məxsus olduğunu nümayiş etdirir. Xatırladaq ki, 2022-ci ildə dövlət büdcəsinin gəliri 26,816 milyard manat, xərcləri 29,879 milyard manat təşkil edəcək. Bu, müstəqillik tarixində ən böyük büdcədir. Dollar ifadəsində isə büdcə xərcləri 17,575 milyarddır.

Ümumiyyətlə, müstəqillik tariximizdə dövlət büdcəsinin xərcləri 1 milyard manatlıq həddi 2003-cü ildə (1,234 milyard manat), 5 milyard manatlıq həddi 2007-ci ildə (6,086 milyard manat), 10 milyard manatlıq həddi 2008-ci ildə (10,77 milyard manat), 15 milyard manatlıq həddi 2011-ci ildə (15,4 milyard manat), 20 milyard manatlıq həddi 2018-ci ildə (22,73 milyard manat), 25 milyard manatlıq həddi 2021-ci ildə (proqnoz 28,54 milyard manat) ötüb.

Cari ildə dövlət büdcəsinin xərcləri təxminən 30 milyard manata çatacaq. Bu, milli valyuta ilə ifadədə müstəqillik tariximizin ən böyük büdcəsidir. Aparılan hesablamalar göstərir ki, ölkəmizin gələn il büdcəsi ümumi daxili məhsulun 32,5 faizi səviyyəsindədir. 2021-ci ilin büdcəsi ÜDM-in 33,6 faizi həcmində idi.

ÜDM-in büdcəyə cəlb olunma faizi nə qədər azdırsa, dəyər yaradanların əlində sosial-iqtisadi inkişaf üçün bir o qədər artıq vəsait qalır.

Beləliklə, 2022-ci il büdcəsinin gəlirləri ötən illə müqayisədə 980 milyon manat, xərcləri isə 431 milyon manat artıqdır. Gəlirlər 2021-ci illə müqayisədə 5,4 faiz, xərclər 4,7 faiz çoxdur.

# YURD HƏSRƏTLİ, TORPAQ ÜRƏKLİ OĞUL

## Adı dillərdə, xatirəsi yaddaşlarda yaşayan şəhidimiz

**Doğum günü fevral ayının 26-na - Xocalı soyqırımının ildönümünə təsadüf etdiyi üçün bunu əsla qeyd etməzdi. Haqqında bəhs edəcəyimiz qəhrəman "Qarabağ" ordenli cəsur silahdaşımız baş çavuş Abdullayev Tural Şakir oğludur.**



O, 1990-cı il fevralın 26-da Laçın rayonunun Ərikli kəndində doğulub. Hələ körpə yaşlarından mənfur düşmənlərimizə nifrət ruhunda tərbiyə almışdı. Tural Laçının Ərikli kəndində dünyaya göz açsa da, iki yaşınadək ailəsi ilə birgə Xocalıda yaşamışdı. Lakin 1992-ci il fevralın 26-da şəhər erməni qəsbkarları tərəfindən işğala və əhalisi soyqırıma məruz qaldığından Abdullayevlər ailəsi Bakının Xətai rayonuna pənah gətirmişdi. Orta təhsilinin 8-ci sinfədək olan hissəsini Bakı şəhəri, Xətai rayonu ərazisində yerləşən Laçın rayonu 28 saylı tam orta məktəbində, 9-11-ci sinfi isə ailəsinin təsərrüfat qurmaq səbəbilə müvəqqəti məskunlaşdıqları Qax rayonunun Almalı kənd orta məktəbində oxumalı olub. Üç ildən sonra yenidən Bakıya qayıdıblar. Lakin bu dəfə Sabunçu rayonunun Bilgəh qəsəbəsində kirayədə yaşayıblar...

O, 2009-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müddətli həqiqi hərbi xidmətini 2009-cu ilin iyul ayından 2011-ci ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı bölməsində keçib. Qısa fasilədən sonra, yəni 2011-ci ilin aprel ayından Daxili Qoşunların Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu yerinə yetirməyə başlayıb.

Daxili Qoşunların Qubadakı "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən Müharibəsi Qəhrəmanı kapitan Nicad Bədəlov vaxtilə birgə xidmət etdiyi cəsur döyüşçü yoldaşının nümunəvi xidmətini bu gün də böyük fəxr hissi ilə xatırlayır: "Baş çavuş Tural Abdullayev nümunəvi xidməti və yüksək hərbi intizamı ilə fərqlənən hərbi qulluqçulardan idi. Xocalıya, doğma Qarabağımıza yenidən qayıtmaq arzusu ilə yaşayırdı..."

30 sentyabr 2020-ci il... Kəlbəcər istiqamətində gedən döyüş Turalın son döyüşü oldu. Silahdaşı, baş çavuş Olxan Quliyev: "Tural mənim ən yaxın dostum, eyni zamanda, sirdaşım idi, qorxu hissi olmayan əsl döyüşçü idi. Qismət elə gətirdi ki, Vətən müharibəsi başlayanda da onunla eyni qrupun tərkibində düşmənə qarşı vuruşmalı olduq.

Qrupumuzun şəxsi heyəti Kəlbəcər istiqamətində bir sıra düşmən postlarının ələ keçirilməsində və xeyli sayda canlı qüvvəsinin məhv edilməsində xüsusilə fərqlənib. Sentyabrın 30-da canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qalmış düşmən mövqelərimizi uzaq məsafədən minaatanlardan və digər artilleriya qurğularından atəşə tuturdu. Turalla aramızda cəmi iyirmi metr məsafə olardı. Bu zaman düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində o, ağır qəlpə yarası aldı. Biz şəhid olanları və yaralıları ərazidən çıxartdıq. Çox təəssüflər olsun ki, iki gündən sonra



Turalın şəhid olma xəbərini aldım...".

Baş çavuş Hilal Əliyev isə yaralanmazdan bir saat öncə aralarında olan söhbəti məhz müharibənin ən ağrılı xatirəsi kimi heç zaman unutmayacağını deyir: "Bir gün mənə yaxınlaşıb dedi ki, səndən bir xahişim var. Gözləri dolmuşdu. Bir qədər susub: "Mən bilirəm ki, şəhid olacağam",-dedi. Onun sözünü kəsib: "Elə şey ola bilməz. İnşallah, müharibə bizim qələbəmizlə başa çatar, hər birimiz sağ-salamat evimizə qayıdarıq",-dedim. Başını bulayıb, gözlərimin içinə dik baxaraq: "Yox, qardaş. Bu, mənim ürəyimə damıb. Əgər mən şəhid olsam, anamı mənim yerimə bol-bol qucaqlayıb, onu çox sevdiyimi söyləyərsən",-dedi... Bu mənim üçün nə qədər ağır olsa da, şəhidlik məqamına yüksəlmiş döyüşçü yoldaşımın son xahişini yerinə yetirməli oldum".

Baş çavuş T.Abdullayev 2020-ci il oktyabrın 1-də Xəzər rayonu, Binə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 9, 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Abdullayev Tural Şakir oğlu (ölümündən sonra) "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# YADDAN ÇIXMIRLAR, UNUDULMURLAR...

## Səbail RPİ-nin əməkdaşlarından nəcib addım, gözəl təşəbbüs

**Bugünlərdə Səbail Rayon Polis İdarəsinin rəhbərliyi illər öncə xidməti vəzifələrini yerinə yetirərkən cinayətkar qəsdlərin qurbanı olan polis kapitanı Vahid Əliyevin və polis serjantı Amil İbrahimlinin ailələrinə baş çəkiblər.**





Andlarına sadiq qalan, daxili işlər orqanlarının tarixinə adları əbədi həkk olan, hər zaman xatırlanan həmkarlarımızın ömür yolundan, igidlik və şücaətindən danışan **RPİ rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovniki Mərdan Məmmədov** onların bu gün sıramızda asayişi qoruyan gənclərə örnək bir ömür yaşadıqlarını qeyd edib.





Vətənə, dövlətə və dövlətçiliyə ləyaqətlə xidmət edib canlarından keçənlərin ailələrinə ölkə və DİN rəhbərliyi tərəfindən hər zaman diqqət və qayğı ilə yanaşıldığını diqqətə çatdıran polis kapitanı Vahid Əliyevin ömür-gün yoldaşı Tamara Əliyeva, oğlu Zaur Əliyev həmkarlarımıza təşəkkürlərini bildiriblər.

Polis serjantı Amil İbrahimlinin övladı, "Zəkalar" liseyinin 10-cu sinif şagirdi Cəlil İbrahimliyə isə həmkarlarımız noutbuk və printer hədiyyə ediblər. Asayiş keşikçiləri gələcəkdə atasının yolunu davam etdirmək niyyətində olan Cəlilə yaxşı oxumasını, kompüter və informasiya texnologiyalarını istiqamətində təhsilini daha da təkmilləşdirilməsini tövsiyə ediblər.

Görüşlərdə iştirak edən **Kadrlar qrupunun kadr və peşə hazırlığı üzrə baş inspektoru, polis mayoru Anar Qasımov və polis serjantı Ramin Abışov** həmkarlarımızın Vətən və xalq qarşısında xidmətlərinin unudulmadığını, ölümlərindən sonra onların Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "İgidliyə görə" medalları ilə təltif edildiklərini diqqətə çatdırıblar.

Yeri gəlmişkən, RPİ rəhbərliyinin göstərişi ilə inzibati binada hər iki həmkarımızın fotoşəkillərindən ibarət xatirə lövhəsi hazırlanıb.

**Redaksiyadan:** ***Polis kapitanı Vahid Əliyev 1950-ci ildə Ağdam rayonunun Əfətli kəndində doğulub. 1971-ci ildə DİO-da xidmətə başlayıb. Xidməti vəzifə borcunu yerinə yetirərkən 1996-cı ilin 11 oktyabr tarixində cinayətkar qəsdin qurbanı olan həmkarımız torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə də iştirak edib.***

***Polis serjantı Amil İbrahimli isə 1983-cü ildə Ağdam rayonunun Mərzili kəndində doğulub. DİO-da xidmətə 2003-cü ildən başlayıb. Xidməti vəzifəsini yerinə yetirərkən 2007-ci ilin mayında həlak olub.***

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# "Ən yaxşı monoqrafiya"

## Polis Akademiyasının əməkdaşı beynəlxalq elmi müsabiqədə diploma layiq görülüb

Qazaxıstan Respublikasının müstəqilliyinin 30 illiyinə həsr olunan beynəlxalq elmi müsabiqədə Polis Akademiyasının müəlliminin elmi əsəri fərqlənib.

***Müsabiqədə Azərbaycan DİN Polis Akademiyasını "DİO-nun inzibati fəaliyyəti" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru, polis polkovniki Şahin Şükürov təmsil edib.*** Onun müəllifi olduğu "Cinayətlərin ayrı-ayrı növləri ilə mübarizədə nəzəri və hüquqi əsaslar" monoqrafiyası "Ən yaxşı monoqrafiya" nominasiyasında 2-ci dərəcəli Diploma layiq görülüb.








Qazaxıstan DİN-in B.Beysenov adına Karaqanda Akademiyasının rəisi, polis general-mayoru A.Darmenov Azərbaycan DİN-in Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanova ünvanladığı məktubda beynəlxalq elmi müsabiqədə Akademiyanın iştirakına görə dərin minnətdarlığını bildirib, bu cür elmi müsabiqələrin təhsil müəssisələri arasındakı əlaqələrin möhkəmləndirilməsində əhəmiyyətli olduğunu qeyd edib.

# Uşaqları, gələcəyimizi qoruyuruq

***Uşaqların qorunması polisin hər zaman diqqət mərkəzində saxladığı, həssaslıqla yanaşdığı məsələlərdən olub.***

Bir neçə gün əvvəl Sabunçu rayonunda oğurlanan 2 yaşlı uşağın tapılması, hadisəni törətməkdə şübhəli bilinənlərin təqsirləndirilən şəxs qismində tutularaq istintaqa cəlb edilməsi barədə xəbərləri maraqlı bir görüntü müşayət edirdi; həmkarımız qayğıkeşliklə uşağa, uşaq isə ümidlə ona sarılmışdı. O kadrlar, həm də polisin uşaqlara münasibətinin vizual ifadəsi kimi diqqət çəkdi.

Əslində, polisin il ərzində uşaqlarla bağlı keçirdiyi çoxsaylı tədbirlər, xüsusən yetkinlik yaşına çatmayanlarla aparılan profilaktik işin son illərdə daha da genişlənməsi bu münasibəti bariz şəkildə ortaya qoyur.

İndiyədək neçə-neçə kimsəsiz, sosial təhlükəli vəziyyətdə olan uşaqlar polis əməkdaşları tərəfindən xilas edilib, yenidən qayğısız həyata qaytarılıb. Elə bugünlərdə daha bir uşaq - 11 yaşlı oğlan Xəzər RPİ-nin əməkdaşları tərəfindən sığınacağa yerləşdirilib. Anası narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə həbs edilən uşağın atası da olmayıb və anasının əvvələr qeyri-rəsmi yaşadığı yad adamın yanında qalıb. Əməkdaşlarımız onu tibbi müayinədən keçirərkən bədənində yaralar olduğu üzə çıxıb. Müayinələrdən sonra sığınacağa yerləşdirilən uşağın müalicəsi orada davam etdirilir.



Ötən il polisin uşaqlarla bağlı həyata keçirdiyi tədbirlərin statistikasını öyrənmək üçün Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinə müraciət etdik və suallarımızı İdarənin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova cavablandırdı.

O, qeyd etdi ki, ötən il ərzində İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin əməkdaşları tərəfindən erkən nikah, məişət və ailədaxili zorakılıq halları, narkomaniya və digər zərərli vərdişlər əleyhinə 20 görüş keçirilib. Yetkinlik yaşına çatmayanlara tütün məmulatı satılması ilə bağlı 14 reyd keçirilib, 5 nəfər barəsində inzibati xəta haqqında protokol tərtib olunub. Eyni zamanda, 9 uşağın qanunsuz əməyə cəlb olunması, 23-nün isə avara və dilənçiliklə məşğul olması faktı aşkar edilib, onlarla bağlı da hüquqi tədbirlər görülüb. Eləcə də 3-ü yetkinlik yaşına çatmamış 5 uşaq sığınacağa yerləşdirilib.

Bakı şəhər BPİ-nin rayon polis idarələrinin əməkdaşları tərəfindən isə 121 maarifləndirici görüş, 347 reyd keçirilib, 61 uşaq sığınacaqlara təhvil verilib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

## ZƏRURİ, QABAQLAYICI TƏDBİRLƏR GÖRÜLÜR...

### Qaydalara ciddi riayət edək, özümüzün və doğmalarımızın həyatını riskə atmayaq

***Yollarda tez-tez tıxacların, sıxlığın müşahidə olunması, itirilən vaxt, eyni zamanda yol-nəqliyyat hadisələrinin, eləcə də piyadaların vurulması insanları ən çox yoran və narahat edən hallardır. Mövzunun aktuallığını nəzərə alıb bu istiqamətdə yol polisinin gördüyü qabaqlayıcı profilaktiki işlərə nəzər saldıq.***



**Binəqədi Rayon Polis İdarəsi Dövlət Yol Polisi Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Cəmşid Hənifəyev** suallarımızı cavablandırarkən bildirdi ki, qəzaların qarşısının alınması, yarana biləcək süni sıxlığın aradan qaldırılması, piyadaların təhlükəsizliyi, hərəkət qaydalarını kobud şəkildə pozaraq qəza şəraitinin yaranmasına səbəb olan piyadalara xəbərdarlığın edilməsi, bir sözlə, insanların mənzil başına sağ-salamat çatmaları, vətəndaş məmnunluğu gündəlik xidməti fəaliyyətlərinin qayəsini təşkil edir. Kobud qayda pozuntularına qarşı mübarizənin təşkili, şəxsi heyət arasında mənəvi-psixoloji mühitin sağlamlaşdırılması, nizam-intizamın möhkəmləndirilməsi də diqqət mərkəzində saxlanılır.

Söhbət əsnasında, şöbə rəisi yol-hərəkəti qaydaları, eyni zamanda təhlükəsizliyi haqqında mütəmadi maarifləndirmə tədbirlərinin aparılmasına baxmayaraq qəzaların baş vermə səbəblərinə toxundu. Qeyd etdi ki, sürücülərin sürət həddini aşmaları, içkili vəziyyətdə avtomobili idarə etmələri ilə yanaşı, bəzi yolların zəif işıqlandırılması da hadisələrin törənməsinə zəmin yaradır. Şöbənin təcrübəli zabitləri **- yol-patrul xidməti baş inspektoru, polis mayoru Nəsib Əsədov, axtarış-üzrə inspektor, polis mayoru Namiq Abdullayev və inzibati təcrübə üzrə inspektor, polis baş leytenantı Pərviz Allahverdiyev** tərəfindən illik hadisələrin dərindən öyrənildiyini və digər əməkdaşlarla birgə kompleks təhlillərin aparıldığını, növbəti ildə bu kimi halların aradan qaldırılması məqsədilə daha da təkmilləşdirilmiş zəruri qabaqlayıcı tədbirlərin planlaşdırıldığını bildirdi. Dedi ki, qəzaları avtomobillər deyil, insanlar törədir. Sükan arxasında daha diqqətli olmaqla, yol hərəkəti qaydalarına ciddi riayət etməklə özümüzün və doğmalarımızın həyatını riskə atmamış oluruq.

Yeri gəlmişkən, Binəqədi RPİ DYPŞ-nin əməkdaşları 2021-ci il ərzində ümumilikdə 21.812 inzibati xəta aşkarlayıblar. Sürücülük vəsiqəsi olmayan 137, təhlükəsizlik kəmərindən istifadə etməyən 755, eləcə də nəqliyyat vasitəsini etibarnaməsiz idarə edən 255 şəxsə, piyadaya yol verməyən 50 sürücüyə inzibati protokollar tərtib edilib. Bundan başqa, 8 avtoxuliqan və 188 sərxoş sürücü - onlardan 4-ü narkotik sərxoşluğu ilə məsuliyyətə cəlb olunub. Bu da 2020-ci illə müqayisədə 9685-dən çox qayda pozuntusu deməkdir.

# SEÇİMİMİZ SAĞLAM HƏYATDIR

**Yardımlı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə 1 nömrəli tam orta məktəbdə “Sağlam gələcək naminə narkotiklərə yox deyək!” mövzusunda maarifləndirmə tədbiri keçirilib.**



Əvvəlcə tədbir iştirakçıları narkotik vasitələrin cəmiyyətə və insan orqanizminə vurduğu zərərli təsirləri əks etdirən videoçarxı izləyiblər.



“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı”nın əhəmiyyətindən, narkomaniyanın cəmiyyətə vurduğu zərərlərdən bəhs edən **RPŞ-nin rəisi, polis polkovniki Arif Babayev** ölkəmizin gələcəyinin məhz sağlam, savadlı gəncliyə bağlı olduğunu bildirib.

Qeyd olunub ki, hər bir yeniyetmə və gənc zərərli vərdişlərdən uzaq durmalı, diqqətini təhsilə, idmana yönəltməlidir. Belə görüşlərin keçirilməsində əsas məqsəd də məhz yeniyetmə və gəncləri narkomaniyanın və digər zərərli vərdişlərin mənfi nəticələri, doğurduğu fəsadlar barədə məlumatlandırmaq, onları belə neqativ əməllərdən çəkindirməkdən ibarətdir.

Sonra Rayon Təhsil Şöbəsinin, Gənclər və İdman İdarəsinin əməkdaşları bu cür maarifləndirici tədbirlərin keçirilməsini yüksək qiymətləndirib, şagirdləri belə həssas mövzulara diqqətlə yanaşmağa, verilən dəyərli tövsiyələrə əməl etməyə çağırıblar.

**Narkomaniyanın fəsadlarından bəhs edən növbəti maarifləndirmə tədbiri Yevlax Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun 7 saylı tam orta məktəbində keçirilib.**

**RPŞ-nin rəisi, polis polkovniki Elnur Mehdiyev** narkotik vasitələrin insan sağlamlığı üçün yaratdığı təhlükələrdən bəhs edib, narkomaniyaya qurşananların bu bəladan uzaqlaşmaqda çətinlik çəkdiyini diqqətə çatdırıb.

O, şagirdlərə xalqımıza, dövlətimizə faydalı vətəndaş kimi yetişmələri üçün mükəmməl təhsilə yiyələnmələrinin vacibliyini vurğulayıb.

Diskussiya şəraitində davam etdirilən tədbirdə mövzu ilə bağlı şagirdlərin ünvanladığı suallar cavablandırılıb.

*Aslan Qiyaslı,*
*Məhəmməd Rzayev*

# Dəymiş maddi ziyan ödətdirildi

**Qaradağ Rayon Polis İdarəsinin İstintaq Şöbəsi əməkdaşları tərəfindən vətəndaşın etibarından sui-istifadə etməklə ona maddi ziyan vuran şəxs saxlanılıb.**

**RPİ İstintaq Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Erol Əliyevin** sözlərinə görə, təqsirləndirilən şəxsə qanunvericiliyin tələbləri izah edilməklə profilaktiki söhbət aparılıb və o, törətdiyi əməldən peşmançılıq hissi keçirdiyini etiraf edib. Şöbə tərəfindən vətəndaşa dəymiş maddi ziyanın tam ödətdirilməsi təmin olunub.

İstintaq zamanı məlum olub ki, Ələt qəsəbə sakini Ceyhun Baxşəliyev evinə stol, stul düzəldilməsi məqsədilə bu işlə məşğul olan Pərvin Həsənovla razılaşıb. Hətta göstəriləcək xidmət haqqına görə verməli olduğu 800 manatı da əvvəlcədən ödəyib. Ancaq xeyli müddət keçsə də Pərvin sifarişi yerinə yetirməyib. Zərərçəkmişin onunla dəfələrlə görüşüb danışması da heç bir fayda verməyib. Sifarişdən imtina etdiyini Pərvinə bildirən və pulunu geri ala bilməyən Ceyhun polisə müraciət edib.

Söhbət əsnasında, digər bir vacib məqama diqqət çəkən şöbə rəisi E.Əliyev texnologiyanın inkişafı ilə əlaqədar son zamanlar dələduzluq hallarının yeni forma və məzmun aldığını bildirdi. Qeyd etdi ki, sosial medianın yaratdığı imkanları fürsət bilən, feyk profillərlə vətəndaşların etibarından, inamından sui-istifadə edərək pullarını mənimsəyən dələduzların ifşa edilməsində, cinayət məsuliyyətinə cəlb olunmasında da polis əməkdaşları yüksək operativlik və peşəkarlıq nümayiş etdirirlər.

***Şöbə rəisi Qaradağ RPİ İŞ-nin əməkdaşları tərəfindən 2021-ci il ərzində vətəndaşlara dəymiş 928.684 manat zərərdən 803.192 manatın ödətdirildiyini də diqqətə çatdırdı.***

*Teymur Əlizadə,*
*polis mayoru*

# BİZƏ YAZIRLAR...



**Millət vəkili Könül Nurullayeva** narkotik aludəçisi olan şəxsin həyat yoldaşını təhqir etməsi, eləcə də onun digər qanunsuz hərəkətləri ilə bağlı DİN-ə ünvanladıqları müraciətdən sonra müvafiq araşdırma aparıldığına və həmin şəxs barəsində həbs qətimkan tədbiri seçildiyinə görə minnətdarlığını ifadə edir.

**Bakı Dövlət Universitetinin müəllimi Nizaməddin Əhmədov** evindən oğuluq etmiş şəxslərin qanuna təslim edilməsi üçün hərtərəfli istintaq hərəkətlərinin aparılmasında qətiyyət və operativlik göstərən Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Bakı şəhər sakini Ayxan Məlikov** Daxili İşlər Nazirliyinə ünvanladığı təşəkkür məktubunda müraciətinə həssaslıqla yanaşıldığına, çeviklik və operativliyə, eləcə də övladının timsalında gələcəyimiz olan uşaqlara sevinc bəxş etdiklərinə görə Nəsimi Rayon Polis İdarəsinin və 22-ci Polis Şöbəsinin şəxsi heyətinə xidmətlərində uğurlar arzulayır: “Bu yaxınlarda azyaşlı qızımın velosipedi oğurlanmışdı. Bununla bağlı 22-ci Polis Şöbəsinə müraciət etdim. Hadisədən iki gün keçmişdi ki, mobil telefonuma zəng gəldi. Polisdən idi. Onlar velosipedin tapıldığını və onu tezliklə evimizə gətirəcəklərini bildirdilər. Düzü, bu məni çox sevindirdi. Velosipedi tapılan qızımın sevincini isə yazıya almaqda çətinlik çəkirəm. O da, mən də inanırdıq ki, polis tezliklə velosipedi tapacaqdır.

22-ci Polis Şöbəsinin əməkdaşları evimizə gələrək velosipedi balaca qızıma təhvil verdilər”.

# MÜBARİZƏMİZDƏ QƏTİYYƏTLİYİK



Bugünlərdə növbəti dəfə paytaxta rayonların birindən gətirilən 360 kiloqram mənşəyi məlum olmayan ət həmkarlarımız tərəfindən aşkar edilib götürüldü. Qısa desək, yenə süfrələrimizə haram qatılmasına imkan verilmədi...

Bu kimi faktlar yalnız qanun keşikçiləri ilə qanunu pozanların qarşıdurması deyil, həm də haqlı ilə haqsızın, xeyirlə-şərin, vicdanlı ilə daxildəki ilahi səsdən məhrum olanların qiyamətə qədər sürəcək əbədi mübarizəsinin bir təzahürüdür.









Belə hadisələrin timsalında polisin vətəndaşı qorumaq həddinin haradan başladığını, müdafiə xəttinin haradan keçdiyini də görürük; Vətən sərhəddən, vətəndaşın qanuni menafeləri isə həm də mətbəxindən, süfrəsindən başlayır. Bu vəzifəmiz insan hüquq və azadlıqlarını, dövlətin, hüquqi və fiziki şəxslərin qanuni mənafelərini, mülkiyyətini hüquqazidd əməllərdən qorumağa qədər dəyişir, genişlənir.

İlk baxışdan mənşəyi məlum olmayan ətin satılması ucuz qazanc dalınca qaçanların acgözlüyü kimi görünsə də, halal süfrəni and yerinə çevirib ona müqəddəslik anlamı verən xalqımızın mənəvi dəyərlərinə qarşı yönələn qəbahətli əməl olduğunu söyləyə bilərik. Ancaq, aydın məsələdir ki, haramı özünə qazanc edib cinayət törədənləri ali dəyərlər ya çox az, ya da heç düşündürmür. Məhz belə anlarda “Hər kəsin polisi onun vicdanıdır, polis vicdanı olmayanların qarşısındadır” aforizmi tam yerinə düşür.

Bu nə ilk, nə də son hadisədir. Öyüd-nəsihətlə bəzilərini islah etmək mümkün olmadığına görə polis indiyədək sərt hüquqi tədbirlər görməli olub, bundan sonra da eyni əmələ yol verənlər, təbii ki, cəzalarını alacaqlar. Ancaq bu hadisə bir daha onu göstərdi ki, Azərbaycan Polisi təkcə cinayətkarlığa qarşı mübarizə və hüquq qaydalarının qorunması ilə əlaqədar aparılmış tədbirlərlə öz işini bitmiş hesab etmir. İstər ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, o cümlədən su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi, istərsə də qida təhlükəsizliyinin qorunması olsun, fərq etməz, əməkdaşlarımız çoxşaxəli vəzifələrini əzmlə yerinə yetirirlər.

# Nankor qohum



Xeyli vaxt olardı ki, qohumu Xəyalın evinə yaxından “baş çəkmək” barədə götür-qoy edirdi. Çox düşünüb-daşındıqdan sonra bir yerdə məhkumluq həyatı yaşadığı köhnə tanışı Eldənizə “dərdini” danışdı. Birlikdə plan cızıdılar. Bu məqsədlə də Şəmkirdən bir maşına əyləşib Masallının Qodman kəndinə gəldilər.

Xəlvəti bir yer tapıb evdəkilərin yatmağını gözlədilər. Nəhayət evin işıqları söndü. Artıq hərəkətə keçə bilərdilər. Sakitcə hasarı aşıb həyətə düşdülər. Otaqlardan birinin pəncərəsini dəmir linglə açıb səssizcə içəri daxil oldular. Ətrafı diqqətlə gözdən keçirdilər. Üstü səliqə ilə örtülmüş sandığı görəndə axtardıqlarının burda olduğunu yəqin etdilər. Onu ehmalca pəncərədən çıxarıb, gəldikləri kimi də oradan uzaqlaşdılar.

Kəndin kənarındakı gölün yanında nəfəslərini dərdikdən sonra çətinliklə də olsa qıfılı sındırdılar. İçi dolu idi. Vaxt itirmədən pulları saydılar və yeddi min manatı aralarında yarı böldülər. Qızıl-zinət əşyalarını da götürüb sandığı gölə atdılar. “Asta qaçan namərddi”,- deyib Gəncə şəhərinə yol aldılar. Ertəsi gün qızılları satıb, əldə etdikləri 5000 min manatı da aralarında “ata malı” kimi böldülər...

Səhər sandığın yerində olmadığını görən ailə üzvləri əvvəl nə baş verdiyini anlamasalar da pəncərənin sındırıldığını görəndə evlərindən oğurluq edilməsi ilə bağlı Masallı Rayon Polis Şöbəsinə məlumat verdilər. Göstərişə əsasən yaradılmış əməliyyat-istintaq qrupu vaxt itirmədən kəndə yollandı. Hadisə yeri müayinə edildi və digər lazımi istintaq hərəkətləri aparıldı.

Elə həmin gün İrşad Mürşüdov heçnədən xəbərsiz kimi əmisinin həyat yoldaşının yas mərasimində iştirak etmək üçün kəndə geri döndü. Ağır cinayətə məhkum olunmuş İrşadın hərəkətləri polisin diqqətindən yayınmadı.

Şübhəli şəxs qismində polis şöbəsinə dəvət olunan İrşad oğurluqdan xəbərsiz olduğunu, kəndə təzəcə gəldiyini söyləsə də, təkzibolunmaz dəlil və sübutlar qarşısında hər şeyi etiraf etməli oldu.

***Bu cinayətin isti izlərlə açılmasında Masallı RPŞ-nin əməkdaşları, polis baş leytenantı Elşad Məmmədov və polis baş serjantı Zamir Kazımov xüsusilə fərqləndilər.***

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# Dünyanı idarə edən güc - İNTERNET



O son elmi-texnoloji yenilik, informasiya texnologiyasının “məhsulu” sayılsa da yaranmasına görə ən uca mənəvi dəyərə, sevgiyə borcludur.

Söhbət günümüzdə dünyanın ünsiyyət vasitəsinə çevrilən internetdən gedir.

Gənc bir riyaziyyat mühəndisi Vinton Cerf anadangəlmə eşitmə qabiliyyəti olmayan Carinneye aşiq olur. Carinne eşitmədiyi üçün danışmaqda və ünsiyyət qurmaqda çətinlik çəkirdi. California Universitetində Riyaziyyat Mühəndisliyi üzrə kompüterlərarası məlumat transferiylə məşğul olan Cerfin tək istəyi həyat yoldaşını xoşbəxt etmək idi.

Həmin ərəfədə, yəni 1970-ci illərin əvvəllərində ABŞ Müdafiə Nazirliyi nüvə hücumlarından sonra şəxsi heyəti və mərmi enişlərini izləmək üçün "ARPA net" adlı gizli bir layihəyə həyata keçirir. Məhz bu layihə Cerfin köməyinə çatır və beləcə, gələcək internet erasının əsası qoyulur.

O zamanlar hərbi məqsədlərlə istifadə edilən sistemin-İnternetin qısa müddət ərzində kütləviləşməsi, daha doğrusu bir çox təşkilatlar tərəfindən istifadəsi onun təkmilləşdirilməsinə zəmin yaradır. Onu inkişaf etdirən elm adamlarının arasında Cerf də vardı. O, interneti bügünkü halına gətirmək üçün müxtəlif proqramlar hazırlayır, bir çox yeniliklərə imza atır. Buna ən çox sevinən isə əlbəttə ki, onun həyat yoldaşı idi.

İllər sonra Cerf belə deyirdi: “Bu gün, həyat yoldaşım artıq universitetdə oxuyan oğlumuzla belə internet vasitəsiylə danışa bilir. Hərdən düşünürəm ki, bəlkə də interneti həyat yoldaşımı xoşbəxt edə bilmək üçün icad etmişəm…”

*Hazırladı: R.Əliyeva*

# Düşməndən qalan qənimətlər

İşğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı vasitələrdən təmizlənməsi, erməni hərbi birləşmələrinin geri çəkilərkən atdıqları silah-sursatın yığılması üçün aidiyyəti dövlət qurumlarının təmsilçiləri, o cümlədən daxili işlər orqanlarının əməkdaşları tərəfindən fasiləsiz zəruri tədbirlər yerinə yetirilir.






**Füzuli Rayon Polis Şöbəsinin** əməkdaşları rayon ərazisində bu günlərdə keçirdikləri növbəti nəzarət-profilaktiki tədbirlər nəticəsində tərk edilmiş hərbi mövqelərdən xeyli silah-sursat aşkar ediblər. Aşkar edilən 2 pulemyot, 2 “Faqot” və 1 “Kornet” tipli tank əleyhinə idarə olunan raket kompleksləri, 4 qumbara, 3 avtomat sandığı, 18 müxtəlif növ mərmi, 317 müxtəlif çaplı patron aidiyyəti üzrə təhvil verilib.

****

**Şuşa Rayon Polis Şöbəsinin** əməkdaşlarının da Dövlət Təhlükəsizliyi Xidmətinin və Minatəmizləmə Agentliyinin təmsilçiləri ilə birgə keçirdikləri tədbirlər zamanı Şuşa şəhəri ərazisindən 6 “Faqot”, 5 ”Muxa”, 1 pulemyot, 1 qumbaraatan, 8 qumbara, 110 müxtəlif növ mərmi, 3 avtomat sandığı, 2712 müxtəlif çaplı güllələr və digər döyüş sursatları aşkar edilib.




Qaraciyərin əsas funksiyalarından biri detoksikasiya funksiyasıdır. İnsan orqanizminə gün ərzində çoxlu sayda ziyanlı maddələr daxil olur, həmçinin onlar müxtəlif metabolik proseslər nəticəsində orqanizmin özündə yaranır.

Qaraciyər bütün bu maddələri zərərsizləşdirir. Qaraciyərin fəaliyyəti dayandıqdan bir neçə saat sonra insan komaya düşür və 1-2 gündən sonra həyatını itirir. Bunun səbəbi toksiki maddələrin həddindən artıq toplanması nəticəsində orqanizmin zəhərlənməsidir.

Orqanizmi ziyanlı maddələrdən təmizləyən qaraciyər özü də bu maddələrin mənfi təsirinə məruz qalır. Məsələn, siqaret çəkmək, spirtli içkilər qəbul etmək qaraciyəri məhv edən amillər sırasında birincidir.

## Qaraciyəri təmizləyən və bərpa edən 5 əlçatan məhsul

Mütəxəssislər qaraciyərin sağlamlığına daim nəzarət etməyi tövsiyə edirlər. Bunun üçün insan sağlam qidalanmalı, ziyanlı vərdişlərdən imtina etməli, dərmanları yalnız həkimin təyini ilə içməli, fiziki aktiv olmalıdır.

Bəzi qida məhsulları qaraciyərin funksiyalarını bərpa etməyə, bu vacib orqanın sağlamlığını qorumağa yardım edir.

❖ ***Sarımsaq qaraciyəri təmizləyir və funksiyalarını yaxşılaşdırır.***

❖ ***Çuğundur qaraciyərin hüceyrələrini yeniləyir, orqanı təmizləyir.***

❖ ***Sarıkök öd kisəsini və qaraciyəri təmizləyir, iltihabları azaldır.***

❖ ***Qreypfrut da qaraciyərin funksiyalarını yaxşılaşdırır.***

❖ ***Alma tərkibində olan pektinlər sayəsində bütün orqanizmi və o cümlədən qaraciyəri təmizləyir, ziyanlı maddələri xaric edir.***

*Natiq Abdullayev,*
*polis mayoru*

**Qaradağ RPİ 38-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ümid qəsəbə sakini X.Verdiyevdən “AKM” markalı avtomat silahı, 1 ədəd patron darağı və 9 ədəd patron aşkar edilərək götürülmüşdür.




◆◆◆

**Binəqədi RPİ 43-cü PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş İ.Həsənovdan “CZ-27” markalı tapança aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Hacıqabul RPŞ-nin** əməkdaşları tərəfindən narkotik vasitə ilə tutulmuş H.Məmmədovun ətrafında aparılan əməliyyat tədbirləri ilə ona narkotik vasitəni satmaqda şübhəli bilinən Şirvan şəhər sakini R.İbrəhimov da müəyyən edilərək saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqram 270 qram metamfetamin və 1 kiloqram 243 qrama yaxın heroin aşkar edilərək götürülmüşdür.



# STATİSTİKA

## Aşkar edilən silah-sursat

Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi məqsədilə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Əldə edilən məlumatlar əsasında polis əməkdaşlarının keçiridikləri əməliyyat tədbirləri nəticəsində yanvarın 5-dən 11-dək respublikanın ayrı-ayrı rayonlarında vətəndaşlardan qanunsuz saxladıqları müxtəlif markalı ümumilikdə 27 ədəd ov tüfəngi götürülüb.

Polis əməkdaşları tərəfindən aparılan profilaktiki tədbirlər nəticəsində qanunsuz saxlanılan müxtəlif markalı 9 ədəd ov tüfəngi isə könüllü olaraq polisə təhvil verilib.

Faktlar üzrə polis şöbələrində müvafiq araşdırmalar aparılır.

## Toyların monitorinqi

5-11 yanvar tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 1048 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 1031 şadlıq sarayında, 17 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 17 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 1 şadlıq sarayının sahibi İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib;
- 165 nəfər “COVID-19” sertifikatı olmadığına görə şənliyə buraxılmayıb.

## Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Yanvarın 5-dən 11-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 23 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 4 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Kriminal icmal

- Yanvar ayının 5-dən 11-dək olan müddət ərzində respublikanın daxili işlər orqanları tərəfindən 391 cinayətin üstü “isti izlər”lə açılıb.
- Əvvəlki dövrlərdən bağlı qalmış 78 cinayətin açılması təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 315, o cümlədən borclu şəxs qismində axtarışda olan 260 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Avtomobil yollarında 13 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 14 nəfər ölüb, 5 nəfər xəsarət alıb.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 239 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 7647
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.